

**VAQİF HÜSEYNOV,**
Kənd Təsərrüfatında Özəl Bölmənin
İnkişafına Yardım Agentliyinin rəhbəri

# BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

Ölkəmizdə aparılan uğurlu aqrar islahatlar bu sahədə dövrün tələblərinə cavab verən yeni təsərrüfat formaları yaratmaq, kənd təsərrüfatını dünya iqtisadi sisteminə inteqrasiya edilmə zəruriyyəti qarşısında qoydu. Möhtərəm Prezidentimizin həyata keçirdiyi torpaq islahatı Azərbaycan kəndlisinin çoxəsrlik arzusunu reallaşdırdı, onları torpağın həqiqi sahibinə çevirdi. Yalnız Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında deyil, Şərq aləmində analoqu olmayan bu cəsarətli addım kənd təsərrüfatını böhranlı vəziyyətdən çıxardı və ona yeni həyat verdi.

Beləliklə, torpaq islahatından sonra Möhtərəm Prezidentimiz tərəfindən verilən bir sıra fərmanlar, dəyərli tövsiyələr, islahat prosesini daha da sürətləndirdi, aqrar sahəyə yerli və xarici sərmayə cəlb edildi və kənd təsərrüfatının uğurlu inkişafının təməli qoyuldu.

Son illərdə qazanılmış təcrübənin təhlili göstərir ki, bazar münasibətləri şərtlərində istehsalın inkişafının vacib şərtlərindən biri xüsusi mülkiyyətə əsaslanan çoxnövlü təsərrüfat formalarına geniş meydan verilməsidir. Belə ki, iqtisadi münasibətlərin səmərəli fəaliyyət göstərməsində əsas yük xüsusi mülkiyyətə əsaslanan təsərrüfatların payına düşməlidir. Bu istiqamətdə aqrar bölmədə islahatların gedişinin sürətləndirilməsi, çoxnövlü özəl təsərrüfat formalarının yaradılması və onların intensiv inkişafının təmin edilməsi vacib şərtlərdəndir.

Apardığımız tədqiqatlar göstərir ki, son illərdə respublikada, onun ayrı-ayrı regionlarında aqrar islahatın gedişinin sürətləndirilməsi, müxtəlif mülkiyyətli təsərrüfat formalarının yaradılması sahəsində ciddi irəliləyişə nail olunmuşdur.

Azərbaycan Dövlət Statistika Komitəsinin aqrar islahatın gedişinə dair 01 yanvar 2003-cü ilə olan məlumatına görə respublikamızda ümumi torpaq sahəsi 19, 6 min hektar olan 2534 kəndli (fermer) təsərrüfatları, 12,3 min hektar ümumi torpaq sahəsinə malik olan 51 icarə müəssisələri, 36,2 min hektar ümumi torpaq sahəsi olan 1022 kollektiv müəssisələr, 4,4 min hektar ümumi torpaq sahəsi olan 157 kənd təsərrüfatı istehsal kooperativləri və 5,4 min hektar ümumi torpaq sahəsi olan 363 kiçik müəssisələr mövcud 2003-cü ilin 01 yanvarına kimi torpaq payı alması nəzərdə tutulan 850252 ailənin 831128-ci və ya 97,6% torpaq mülkiyyətinə dair dövlət aktı almışdır. Buradan belə bir nəticəyə gəlmək olar ki, yeni yaradılan özəl kənd təsərrüfatı müəssisələri içərisində kəndli (fermer) təsərrüfatları nisbətən

səmərəli və perspektivli təsərrüfat forması olduğundan, gələcəkdə onların təşkilinə xüsusi fikir verilməlidir.

*Cədvəl 1*

**Aqrar bölmədə özəl təsərrüfat formalarının inkişaf dinamikası (müvafiq ilin 01 yanvar vəziyyətinə)**

| Təsərrüfat formaları İllər | İllər | | | | | 2003-cü il 1997-ci ilə nisbətən |
|---|---|---|---|---|---|---|
| | 1997 | 1998 | 1999 | 2002 | 2003 | |
| Cəmi özəl kənd təsərrüfatı müəssisələri | 33864 | 33213 | 51329 | 4798 | 4219 | 12,5 |
| Ondan: icarə müəssisələri | 944 | 1078 | 1003 | 51 | 51 | 5,4 |
| Kənd təsərrüfatı istehsal kooperativləri | 1933 | 500 | 366 | 168 | 157 | 8,1 |
| Kiçik müəssisələr | 1917 | 824 | 627 | 408 | 363 | 18,9 |
| Kəndli fermer təsərrüfatları | 22783 | 25608 | 44561 | 2604 | 2534 | 11,2 |
| Kollektiv müəssisələr | x | x | x | 1403 | 1022 | x |
| Sair özəl kənd təsərrüfatı müəssisələri | 6287 | 5203 | 4772 | 164 | 92 | 0,1 |

Cədvəldən göründüyü kimi son illərdə özəl təsərrüfatların sayı 87,5% azalmışdır. Bu hər şeydən əvvəl onunla bağlıdır ki, islahatların ilk illərində bir çox amillər nəzərə alınmadan özəl təsərrüfatlar yaradılaraq, fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq qeydiyyatdan keçirilib, sonralar isə fəaliyyət göstərmədiklərindən onlar ləğv ediliblər.

Apardığımız hesablamalar nəticəsində müəyyən edilmişdir ki, 1996-cı ildə respublikada kənd təsərrüfatı təmayüllü 2066 kiçik müəssisə fəaliyyət göstərdiyi halda, onun sayı 1997-ci ildə 149, 1998-ci ildə 1242, 2002-ci ildə isə 1439 vahid azalmışdır. Bu meyl şəxsi-yardımçı təsərrüfatlarda, kənd təsərrüfatına xidmət göstərən başqa özəl müəssisələrdə də özünü büruzə vermişdir.

Apardığımız araşdırmalar göstərir ki, başqa təsərrüfat formalarından fərqli olaraq, kəndli (fermer) təsərrüfatları bazar iqtisadiyyatı şəraitində geniş inkişaf perspektivlərinə malikdir. Bunu son illərdə kəndli (fermer) təsərrüfatlarının inkişaf təcrübəsi və Dünya Bankının vəsaiti hesabına yaradılan 6 pilot təsərrüfatlarının təcrübəsi də sübut edir. Odur ki, son illərdə məhsul istehsalının artımında özəl kənd təsərrüfatı müəssisələrinin, xüsusilə əhalinin və kəndli (fermer) təsərrüfatlarının rolu və xüsusi çəkisi artmaqdadır.



Apardığımız hesablamalar göstərir ki, 2002-ci ildə kənd təsərrüfatı sistemində istehsal olunan taxılın 98,6%-i, pambığın 98,0%-i tütünün 99,8%-i, kartofun 99,8%-i, tərəvəzin 96,7%-i, üzümün 98,6%-i, meyvə və giləmeyvə məhsullarının 98,7%-i əhalinin fərdi təsərrüfatlarının və kəndli (fermer) təsərrüfatlarının payına düşür. Həmçinin respublikada bütün təsərrüfat kateqoriyaları üzrə saxlanılan mal-qaranın 98,3%-i, o cümlədən inək və camışların 99,3%-i, qoyun və keçilərin 98,4%-i, quşların 98,0%-i əhalinin və kəndli (fermer) təsərrüfatlarında cəmləşmişdir.

Hesablamalar nəticəsində müəyyən edilmişdir ki, respublikada istehsal olunan heyvandarlıq məhsullarının: ətin 99,6%-i, südün 98,2%-i, yumurtanın 98,9%-i, yunun 98,6%-i özəl təsərrüfatların payına düşür. Deyilənləri 2 saylı cədvəlin rəqəmləri də sübut edir.

*Cədvəl 2*

**Kənd təsərrüfatı məhsullarının istehsalı dinamikası**

| Göstəricilər | Ölçü vahidi | İllər | | | |
|---|---|---|---|---|---|
| | | 1995 | 1999 | 2000 | 2001 |
| Bitkiçilik məhsulları istehsalı: | | | | | |
| taxıl | min ton | 33,1 | 1098,3 | 1540,2 | 2016,1 |
| pambıq | -//- | 4,7 | 96,8 | 91,5 | 83,6 |
| kartof | -//- | 146,8 | 394,1 | 469,0 | 605,8 |
| tərəvəz | -//- | 352,3 | 670,8 | 780,8 | 916,4 |
| meyvə və giləmeyvə | -//- | 291,6 | 436,5 | 477,0 | 497,5 |
| üzüm | -//- | 124,6 | 112,5 | 76,9 | 68,1 |
| bostan məhsulları | -//- | 25,8 | 206,3 | 261,0 | 290,9 |
| Heyvandarlıq məhsulları: | | | | | |
| ət istehsalı | min ton | 65,5 | 104,6 | 108,7 | 114,1 |
| süd istehsalı | -//- | 742,7 | 993,4 | 1037,1 | 10,73,7 |
| yun istehsalı | -//- | 5,9 | 10,5 | 10,9 | 11,6 |
| yumurta istehsalı | -//- | 48,8 | 526,3 | 542,6 | 555,6 |

Bu baxımdan yaxınlarda ölkə Prezidenti Möhtərəm Heydər Əliyevin sahibkarlığın inkişafını sürətləndirmək məqsədi ilə verdiyi fərman və sərəncamlar iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Məhz bu tarixi addımların nəticəsini görən və ona qiymət verən Beynəlxalq Maliyyə qurumları, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, həmçinin Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond və digərləri aqrar sahəyə təkan verəcək böyük layihələrlə ölkəmizə müraciət etdilər və beləliklə, əsl inkişafın əsası qoyuldu.

Son illərdə aqrar islahatların aparılması məqsədi ilə aparılan işlərdən biri də nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin genişlənməsi, Azərbaycana, o cümlədən aqrar sahəyə xarici sərmayənin cəlb edilməsidir.

İqtisadiyyatımızın digər sahələrində olduğu kimi, aqrar sahədə də Beynəlxalq əlaqələr və münasibətlər 1994-cü ildən yaranmağa başlamışdır. Kənd təsərrüfatında aparılan aqrar islahatlara dəstək məqsədi ilə ilkin layihələr Avropa Birliyinin TACİS proqramı çərçivəsində 1994-cü ildən başlayaraq, həyata keçirilməyə başlamışdır.

1994-cü ildən başlayaraq, Avropa Birliyinin TACİS proqramı tərəfindən aqrar sahə üzrə aşağıdakı layihələr həyata keçirilmişdir:

1. Kənd Təsərrüfatı Nazirliyinə təsis yardımı.
2. Ailə və kommersiya təsərrüfatlarına kömək.
3. Azərbaycanda ərzaq məhsullarının bölgüsü sektorunun özəlləşdirilməsi.
4. Regional Kənd Təsərrüfatı İslahatı
5. Aqrar sahədə bank fəaliyyətinə yardım, kənd kredit qurumlarının təşkili.
6. Regional pilot aqrobiznesə yardım birliklər.

Bu layihələr çərçivəsində kənd təsərrüfatının inkişaf istiqamətləri, kənd təsərrüfatının texniki təminatı, irriqasiya sistemlərinin bərpası üzrə tövsiyələr, kənd təsərrüfatını idarə edən orqanların quruluşu və funksiyaları barədə təkliflər işlənib hazırlanmışdır.

Bazar iqtisadiyyatına keçid şəraitində məhsulun istehsalçıdan istehlakçıya çatdırılması məqsədi ilə tədarük, emal və satış sferalarının inkişaf etmiş qərb ölkələri üslubunda təşkilini təmin etmək üçün nümunələr yaradılmışdır.

Bu layihələr çərçivəsində Abşeron rayonunun Məmmədli, Ramana, Hövsan və s. kəndlərindəki özəl təsərrüfatlarda, Xırdalan süd kombinatında süd soyuducuları quraşdırılaraq, süd və süd məhsullarının pərakəndə satışa çıxarılması üzrə nümunəvi sistem yaradılmışdır. Xırdalan ət kombinatında müasir tələblərə cavab verən çeşidləyici və qablaşdırıcı quraşdırılmışdır. Çeşidlənmiş və qablaşdırılmış ət məhsulu təşkil edilmiş, xüsusi pilot mağazasında, böyük restoranlarda və supermarketlərdə satış sistemi yaradılmışdır. Layihələr çərçivəsində meyvə-tərəvəz məhsullarının emalı, çeşidlənməsi, qablaşdırılması, nəqli və pərakəndə satış sistemi üzrə nümunəvi sistem yaradılaraq, Quba, Qusar və Zaqatala rayonlarında sınaqdan keçirilmişdir.

Regional aqrar islahatı layihəsi vasitəsi ilə Avropa Komissiyası ilə bağlanmış müqaviləyə görə özəl taxılçılıq müəssisələrinə bu günədək 15 mln ABŞ dolları məbləğində kredit verilmişdir. Həmçinin özəl qurumlara xidmətin təşkili üçün respublikanın 4 rayonunda aqrobiznesə kömək mərkəzlərinin təşkili bu sahədə müsbət addımlarından biridir.

Yaponiya hökumətinin qrantı hesabına respublikanın özəl qurumlarına kömək məqsədi ilə servis mərkəzlərinin təşkili üçün 7,5 milyon dollarlıq Saziş imzalanmışdır. Həmin qrantın birinci tranşı hesabına Böyük Britaniyanın "Massey Fereqson" traktor zavodu ilə əlaqə yaradılmış, traktorlar, toxumsəpənlər, taxılyığan kombaynlar alınmış və sahibkarların istifadəsinə verilmişdir. İlk dəfə bu texnika lizinq üsulu ilə paylanmışdır.



Alman Texniki əməkdaşlıq Cəmiyyətinin köməyi ilə Zaqatala rayonunda fermerlərin iqtisadi və aqrotexniki biliklərə yiyələnmələri üçün təhsil sistemi yaradılmış və 2000-dən çox fermer təhsillə əhatə olunmuş, perspektivdə rayonun 10000 fermerini təhsilə cəlb etmək planlaşdırılmışdır. Burada, həmçinin fermerlərin məsləhət xidmətinin təşkili və onların kredit birliklərinin yaradılması üzrə məqsədyönlü iş aparılır. Gələcəkdə bu təşkilatla əməkdaşlığı genişləndirmək və əldə olunmuş təcrübənin digər rayonlara da yayılmasını təşkil etmək nəzərdə tutulur.

Beynəlxalq əməkdaşlığın genişləndirilməsi üzrə digər tədbirlər də həyata keçirilir. Holland Hökumətinin qrantı hesabına respublikada kartof toxumçuluğunun inkişaf etdirilməsi layihələşdirilir.

Türkiyənin "Göy hizmətləri" bakanlığı tərəfindən təklif edilən "İmpuls damcılama sisteminin tətbiqi üzrə" layihə bəyənilmiş və belə sistemlərin respublikamızda tikintisi və maliyyələşdirilməsi barədə danışıqlar aparılır.

1997-ci ilin 14-17 iyulunda Bakı şəhərində keçirilən" Kənd Təsərrüfatı və Xəzərin ərzaq məhsulları 97" birinci Beynəlxalq Sərgi konfransı respublikada özəl qurumların inkişafına təkan verdi və xarici sərmayələri bu işə cəlb etməkdə böyük rol oynadı .

1998-ci ilin 6-9 iyulunda Böyük Britaniya Kral Beynəlxalq Sərgisində Respublikamızın kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarları iştirak etdilər və onların 50-dən çox məhsulları nümayiş olundu. Sahibkarların Azərbaycanda istehsal olunan məhsulları böyük marağa səbəb oldu və bu məhsullar üzrə müqavilələr bağlandı.

Dünya elm mərkəzləri, cəmiyyətləri ilə əlaqələrin yaradılması istiqamətində də ciddi işlər görülmüşdür. Belə ki, buğda və qarğıdalının seleksiyası üzrə Beynəlxalq Mərkəzlə (SİMMİT), quraq zonalarda kənd təsərrüfatı tədqiqatları Beynəlxalq Mərkəzlə (İKARDA) əlaqələr yaradılmış və həmin əlaqələr uğurla davam etdirilir.

Beynəlxalq layihələrin həcminin və coğrafi arealının genişlənməsi onların müstəqil orqan tərəfindən idarə edilməsi zəruriyyətini yaratdı. Mərkəzi İşçi Orqanı kimi fəaliyyətə başlayan, 2000-ci ilin əvvəlindən isə Möhtərəm Prezidentimizin fərmanı ilə Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyi kimi fəaliyyət göstərən Agentlik hal-hazırda aqrar sahədə aparılan islahatlara həlledici dəstək verən 3 böyük layihənin icrasını həyata keçirir. "Təsərrüfatların özəlləşdirilməsi" adlanan birinci layihənin icrasına 1997-ci ildə başlanılmış və o, artıq yekunlaşmaq üzrədir.

Layihə çərçivəsində 6645 ailə başçısına (23300 nəfər əhalini əhatə edir) torpaq mülkiyyətinə dair sertifikat, 4036 kəndli (fermer) təsərrüfatına 32.560 milyon manat kredit verilmişdir ki, bundan da vaxtı çatmış kreditin 84 faizi qaytarılmışdır. Torpaq mülkiyyətçilərinin su problemlərini həll etmək üçün 6500-dən çox torpaq mülkiyyətçisini özündə birləşdirən 11972 hektar sahəyə xidmət edən Sudan İstifadə edənlər Assosiasiyası yaradılmışdır. Onlar texniki avadanlıq, avtomobil, motosikl, rabitə vasitəsi, irriqasiya avadanlıqları və digər lazımi materiallarla təmin edilmişdir. 6 təsərrüfatda 21 kəndi əhatə edən təsərrüfatdaxili suvarma və drenaj sisteminin təmir-

bərpa işləri başa çatdırılmış, layihədə yeni əlavə edilmiş 6 kənddə isə bu tədbirlərin icrasına başlanılmışdır.

Layihə çərçivəsində Beynəlxalq təcrübəyə əsaslanan İnformasiya və Məsləhət sistemi qurulmuş, 47 mövzuya aid 60 təlim kursunda 9600 kəndli (fermer) iştirak etmişdir. Beynəlxalq məsləhətçinin iştirakı ilə 240 torpaq mülkiyyətçisinə 24 təlim kursu keçirilmişdir.

Altı rayonda Biznes Mərkəzləri yaradılmış, əhalinin ortaq sosial problemlərinin həlli üçün onların icma halında birləşmələrinə nail olunmuşdur. İcma üzvlərinin kiçik biznes üzrə biliklərinin artırılması məqsədilə onlara 6 təlim kursu keçirilmişdir.

Layihənin içrası dövründə əldə edilən müvəffəqiyyətlərə görə Dünya Bankının təklifi ilə layihənin coğrafi ərazisi iki dəfə genişləndiriləræk, əvvəlki 21 kənddən 113 kəndə çatdırılmışdır.

Layihə çərçivəsində Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə 2466 mil. manat, Kənd Təsərrüfatı Nazirliyinə 57 mil. manat, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə 53 mil. manat, "AzdövsutəsLayihə" İnstitutuna 71 mil. manat, "Aqrokredit" SKT (ASB ) – 305, 6 mil. manat texniki yardım gostərilmişdir. Həmin qrumların işi movcud tələblərə uygun yenidən qurulmus, maddi-texniki bazalarə mohkəmləndirilmisdir.

Beləliklə, layihə tətbiq edilən təsərrüfatlarda Salyan rayonunun "Şəfəq", Xaçmazın "Yergüc", Bərdənin "Qılınclı", Lənkəranın "Mamusta", Ucarın "Qulabənd-Xətai" və Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun "Püsyan" təsərrüfatlarında bu və digər tədbirlərin həyata keçirilməsi sahəsində 1997-ci illə müqayisədə 2001-ci ildə taxılın hektardan məhsuldarlığı 13 sentnerdən 35 sentnerə, pambığınkı 6,4 sentnerdən 22 sentnerə, meyvəninki 84 sentnerdən 135 sentnerə, tərəvəzinki 156 sentnerdən 362 sentnerə, quru yonca otu 54 sentnerdən 155 sentnerə yüksəlmişdir.

Qaramalın baş sayı 10500 başdan 15500 başa, qoyun-keçininki isə 23000 başdan 43000 başa, quşların sayı 63000 başdan 110000 min başa çatmışdır.

Bu dövrdə qadınların ictimai inkişaf prosesinə cəlb edilməsi 30% yüksəlmiş, miqrasiya 27% aşağı düşmüş, zəhərli kimyəvi maddələrin tətbiqi 50% azalmış və yeni texnologiyaların tətbiqi 45% artmışdır.

Bu layihənin icrasının uğurlu nəticələri ərazi və fəaliyyət əhatəliliyi daha geniş olan "Kənd təsərrüfatının inkişafı və kreditləşməsi" layihəsinin respublikaya gətirilməsinə zəmin yaratdı.

Layihə fevral, 2000-ci il tarixdən tətbiq olunmur. Layihənin maliyyə mənbələri aşağıdakılardan ibarətdir: Dünya Bankı-30.0 mln. ABŞ dolları; Azərbaycan Hökuməti- 1.34 mln. ABŞ dolları; qeyri Hökumət Təşkilatı- 2.31 mln. ABŞ dolları.

Layihənin komponentləri aşağıdakılardır:

1. Daşınmaz əmlakın qeydiyyatı
- Reqional Topaq Qeydiyyatı İdarələrinin yaradılması;
- Naxçıvan MR-da Pilot Vahid Qeydiyyat sisteminin yaradılması;



2. İnformasiya və məsləhət xidməti
3. Kənd təsərrüfatı maliyyəsi
4. Kənd təsərrüfatı strategiyası
5. Layihənin idarə olunması.

Əsas komponentlər üzrə texniki yardım çərçivəsində beynəlxalq məsləhətçilərin cəlb olunması uğurla həyata keçirilir.

Naxçıvan MR-da, Gəncə və Şəki şəhərlərində Regional Məsləhət Mərkəzləri yaradılmışdır. Bu mərkəzlərin fəaliyyəti nəticəsində fermerlərdə məlumat, təlim və zəruri informasiya almağa maraq oyanmışdır. Sorğular nəticəsində belə bir qənaətə gəlmək olur ki, fermerlər artıq informasiyaya əmtəə kimi yanaşmağa başlamışlar. Yəni onlar gələcəkdə alacaqları kredit vəsaitinin az da olsa bir qismini zəruri məlumat və informasiya almağa sərf etmək üçün artıq hazırdırlar. Bu da Layihənin ən ümdə məqsədlərindəndir.

Respublikanın 10 regionunda Baytarlıq Xidmətləri Mərkəzləri və Torpaq Qeydiyyatı Xidmətləri artıq fəaliyyət göstərir. Onların avadanlıqla təminatı qismən başa çatmışdır. Bu avadanlıqdan istifadə olunması fermerlərin torpağa aid bütün əməliyyatlarını çox qısa bir zaman çərçivəsində həyata keçirmək imkanını reallaşdırır. Eləcə də bu ərazilərin monitorinqi zamanı fermerlərin baytarlıq xidmətlərinin pullu olmasına baxmayaraq, bu xidmətlərdən çox geniş şəkildə istifadə edirlər.

Müsabiqəli Qrantlar və Elmi Sistemin İslahatı sub-komponenti çərçivəsində 2 milli, 1 regional seminar keçirilmiş, Müsabiqəli Qrantlar Sisteminin həyata keçirilməsinə dair 1 təlimat hazırlanmışdır. Bugünədək Müsabiqəli Qrantlar Sistemi çərçivəsində 21 layihə təklif olunmuşdur ki bundan 6 layihə təsdiq edilmiş, 3 layihə artıq maliyyələşdirilmişdir. Adı çəkilən layihələr 48 hektar ərazini əhatə edir. Müsabiqəli Qrantlar Sisteminin tətbiqinə cəlb olunmuş alim, mütəxəssis və fermerlərin sayı 228-dir. Bütün bu göstəricilər Layihənin məqsəd göstəricilərilə müqayisədə 50-120% tətbiq səviyyəsini nümayiş edir. Cəmi iki il fəaliyyət dövrü üçün Müsabiqəli Qrantlar Sistemi sub-komponenti üçün bu çox yüksək nəaliyyətdir.

Layihənin tətbiq planına uyğun olaraq, agentlik kredit komponentini tətbiq etmək üçün icraçı agent seçməlidi. Bununla bağlı agentlik öz öhdəsində olan Dünya Bankının qaydalarına uyğun Tenderi keçirmiş, son sənədləri Dünya Bankına razılıq almaq üçün göndərmişdir. Bundan başqa Milli Bank üçün Prudensial Normaların hazırlanması üçün Beynəlxalq şirkət Agentlik tərəfindən seçilmiş və bu Qaydalar toplusunun Milli Banka vaxtında təhvil verilməsini təmin etmişdir.

Ölkəmiz üçün mühüm təcrübəvi əhəmiyyət kəsb edən bu layihə 10 illik dövrü əhatə etməklə, birinci mərhələyə 4 il, qalan 2 mərhələnin hər birinə 3 il vaxt ayrılmışdır. Layihənin birinci mərhələsi üzrə nəzərdə tutulan işlər uğurla yerinə yetirilir. Artıq Naxçıvan Muxtar Respublikasının bütün rayonlarını əhatə edən Regional Məsləhət Mərkəzi, Gəncə və Şəki Regional Məsləhət Mərkəzləri təşkil edilmiş və səmərəli fəaliyyət göstərirlər. Həmin regional məsləhət mərkəzlərində yerli mütəxəssislər xüsusi kurslarda təlim keçdikdən sonra fermer və torpaq mülkiyyətçilərinə kənd təsərrüfat bitki və heyvanlarının mütərəqqi texnologiyası,

bazarın tədqiqi, məhsulun bazara çıxarılması, bazar iqtisadi mexanizmi və s. barədə məlumat və məsləhət verirlər.

Vacib məsələlər olan torpaq qeydiyyatı və torpaq bazarı, aqromarketinqin təşkili, pestisidlərin tətbiqi, kənd təsərrüfatının kreditləşməsi və s. mövzular üzrə informasiya kampaniyaları keçirilərək, məlumatlar fermerlərə müxtəlif vasitələrlə çatdırılmışdır. Bu layihə çərçivəsində respublikanın 10 regionunda Baytarlıq və Torpaq Qeydiyyatı Xidmətləri fəaliyyət göstərir.

Layihənin Müsabiqəli Qrantlar və Elmi Sistemin İslahatı subkomponenti çərçivəsində 66 layihə təklifi qəbul edilmişdir. Onlardan 18 fevral 2002-ci il tarixə qədər 11 layihə (o cümlədən 3 buğda, 1 kartof, 1 pambıq, 1 meyvə, 1 çay, 1 üzüm, 1 qarğıdalı, 1 noxud və 1 bitki mühafizəsi) müsabiqədən keçərək təsdiq olunmuşdur. Hal-hazırda həmin layihələr bilavasitə fermer təsərrüfatlarında reallaşmaqdadır.

Bu günlərdə heyvandarlığa dair müsabiqədən keçmiş daha 5 layihə də Dünya Bankı tərəfindən təsdiq olunmuşdur və həmin layihələrlə qrant müqavilələri bağlanılacaqdır.

Artıq reallaşmaqda olan buğda üzrə layihələrdən ilkin nəticələr alınmışdır. Belə ki, Bərdə rayonunun Zümürxaç kəndində fermer Abbasov Kərim Azo oğlunun 5 hektar sahəsində qiymətli 2/17 sortundan hektardan 65 sentner, Turan sortundan 55 sentner, Mirzəbəyli kəndində fermer İbrahimov Əhməd Musa oğlunun 5 hektarlıq sahəsində Azəri sortundan 50 sentner, Yeni Daşkənd kəndində fermer İsmayılov Səttar Tağı oğlunun sahəsində tövsiyə olunan Nurlu sortundan 70 sentner, Tərtər rayonu, İrəvanlı kəndində fermer Məmmədov Namiq Mərdan oğlunun sahəsində tövsiyə olunan Qiymətli 2/17 və Nurlu sortlarından 70 sentner, Qobustan rayonunun Çalov kəndində fermer Cahangirov Atasoltan Xudu oğlunun 5 hektarlıq sahəsində dəmyə şəraitində Bərəkətli sortundan hər hektarda 26 sentner, əkinçi sortundan isə 29 sentner məhsul götürülmüşdür. Bu da həmin fermerlərin əvvəlki illərdə aldıqları məhsuldan təxminən 2 dəfə artıqdır.

Layihənin tətbiq planına uyğun olaraq kredit komponentini icra edəcək, Beynəlxalq icraçı təşkilat seçilmişdir. Həmin təşkilat layihə çərçivəsində 80 kredit ittifaqı, 200 borcalan qrupuna kredit verilməsini təmin edəcəkdir. Bu təşkilat Türkiyənin "G&G konsultant" şirkətinin yaratdığı konsorsiumdur.

Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun maliyyə dəstəyi ilə "Dağ və yüksək dağlıq ərazilərinin inkişaf etdirilməsi proqram"ın icrası üzrə Kredit müqaviləsi imzalanmışdır.

İFAD tərəfindən verilən kreditə uyğun olaraq, təbii ehtiyatları və ətraf mühütin ekoloji tarazılığını qorumaqla, dağ və yüksək dağlıq ərazilərdə kənd təsərrüfatını inkişaf etdirmək, əhalinin gəlirlərini artırmaq, benifisarların bazar iqtisadiyyatında fəal iştirakını , təbii ehtiyatlardan istifadə və idarə etmək ,onların təşkilatlanmasını gücləndirmək, maliyyə, texniki və kommersiya xidmətlərindən faydalanmağı, ətraf mühiti qorumaq və bərpa etmək qabiliyyətini aşılamaqla onların həyat səviyyəsini yüksəltməkdən ibarətdir.



Birinci mərhələ 7 il davam edəcəkdir. Bu mərhələnin ilk illərində bir çox əsas elementlərin sınaqdan keçirilməsi- icmaların yaradılması, kreditverilmə sistemi və texnologiyaların təkmilləşdirilməsi nəzərdə tutulur.

Proqramın birinci mərhələsi 4 əsas komponentdən ibarətdir .

1. ***Birgə inkişaf komponenti.***
2. ***Səmərəli fəaliyyətin təmin edilməsi komponenti***
3. ***Ətraf mühitin yaxşılaşdırılması komponenti***
4. ***Proqramın idarə edilməsi komponenti***

Azərbaycanda bir-birindən fərqlənən 4 dağlıq zona müəyyənləşdirilmişdir və proqramın birinci mərhələsində dağlıq əraziyə görə seçilmiş rayonlar aşağıdakılardır:

- Qəbələ rayonu (Böyük Qafqaz dağlarının cənub hissəsi)
- Şahbuz rayonu (Naxçıvan Muxtar Respublikası)
- Gədəbəy rayonu (Kiçik Qafqaz dağları)
- Lerik rayonu (Talış dağları)
- Quba rayonu (Böyük Qafqaz dağlarının Şimal hissəsi)

Layihənin icrasının birinci mərhələsində kəndlərin mərhələlər üzrə bölüşdürülməsi aşağıdakı kimi nəzərdə tutulur:

| Rayonlar | 1-ci il | 2-ci il | 3-cü il | 4-cü il | Kənd birlikləri | Əhatə olunmuş məntəqələr | Rayonlarda məntəqələrin cəmi |
|---|---|---|---|---|---|---|---|
| Qəbələ | 5* | 4* | | | 9 | 10 | 61 |
| Şahbuz | 5* | 5* | 4* | | 14 | 12 | 24 |
| Gədəbəy | | 5* | 3* | 3* | 11 | 16 | 107 |
| Lerik | | 5* | 5* | | 10 | 47 | 161 |
| Quba | | | 5* | 5* | 10 | 16 | 155 |
| Cəmi | 10* | 19* | 17* | 8* | 54 | 101 | 508 |

*-seçiləcək kəndlərin sayı

Proqramın birinci mərhələsi 7 il müddətinə nəzərdə tutulmuş və bu mərhələdə birinci tranş 10 mln. (vergidən azad olmaqla) ABŞ dolarıdır ki, bunun da 85 %-ni investitsiya xərcləri təşkil edir.

Sözü gedən beynəlxalq layihələrin icrası kompleks tədbirləri özündə birləşdirdiyindən onların icrasına müxtəlif orqanların, elmi tədqiqat və tədris müəssisələrinin əməkdaşları cəlb edilirlər.

Ölkəmizdə mütərəqqi təcrübənin tətbiqi və bazar iqtisadi münasibətlərinin təkmilləşdirilməsi sahəsində Möhtərəm Prezidentimizin yeritdiyi dönməz siyasətə söykənərək beynəlxalq qurumların köməyindən məqsədyönlü istifadə etməklə, aqrar sahənin potensialından tam istifadə ediləcəkdir.